**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN SSR-DƏ YÜKSƏK İXTİSASLI MÜTƏXƏSSİSLƏRİN HAZIRLANMASI VƏ KADR SİYASƏTİ (XX ƏSRİN 70-80-Cİ İLLƏRİN ƏVVƏLLƏRİ)

İxtisas: 5503.02 - Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Anar Bəşir oğlu Həmidov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor
**Əsməd İmamməmməd qızı Muxtarova**

tarix elmləri doktoru, professor
**Xəqani Məmməd oğlu Məmmədov**

tarix elmləri doktoru
**Ədalət Qasım oğlu Qasımov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 saylı Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: tarix elmləri doktoru, dosent
**Fazil Eynulla oğlu Baxşəliyev**

BAKI DÖVLƏT UNİVERSİTETİ
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
“10” 05 2024

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə səviyyəsi.** Azərbaycan Respublikasının elm, təhsil və yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və kadr siyasəti sisteminin müasir inkişaf tendesiyalarını və dinamikasını öyrənmək üçün ilk növbədə XX əsrin 70-80-ci illəri əhatə edən dövrün ətraflı tədqiq olunması vacibdir. Həmin dövrün öyrənilməsi müasir müstəqil Azərbaycanda dövlət quruculuğun inkişafına istiqamətlənmiş müxtəlif sahələr üzrə yüksək ixtisaslı kadr hazırlığı işində həyata keçirilən tədbirlərin hərtərəfli öyrənilməsi tələb olunur. Həyata keçirilən tədbirlər, qazanılmış təcrübələr bu gün də aktuallığını saxlayan yüksək ixtisaslı mütəxəssislərin hazırlanması, onların idarəçilikdə hansı göstəricilərə sahib olaraq təmsil edilməsi proseslərinə dair nəticələr əldə olunmasına imkan verir. Ona görə tədqiqat aparılan dövrdə Azərbaycanda kadr hazırlığı məsələsi Vətən tarixşünaslığında ən aktual mövzulardan biridir.

Eyni zamanda mövzunun aktuallığını şərtləndirən amilləri müəyyən etmək üçün II Dünya müharibəsindən sonrakı 25 ildə Azərbaycanda yaranmış ictimai-siyasi və sosial-iqtisadi vəziyyəti təhlil etmək kifayətdir:

- II Dünya müharibəsindən sonrakı beşilliklərdə SSRİ-nin tərkibində olan Azərbaycanda sosial-iqtisadi və ictimai vəziyyət qeyri-qənaətbəxş idi;
- SSRİ-nin qələbə qazanmasında xüsusi rolu olan Azərbaycan neftinə ögey mövqe sərgilənirdi;
- Digər tərəfdən, Azərbaycan təbii-sərvətlərlə zəngin olmasına baxmayaraq, bu resurslardan başqa müttəfiq respublikalarda sənaye sahələrini inkişaf etdirmək üçün xammal mənbəyi kimi istifadə olunurdu;
- Ölkə əhalisinin savadlılıq səviyyəsi aşağı idi. XX əsrin 30-cu illərində həyata keçirilən repressiya və ikinci Dünya müharibəsi Azərbaycanın milli mənəvi sərvəti olan ziyalı təbəqəsinə ağır zərbə vurmuşdu. XX əsrin 60-cı illərinin sonuna qədər Sovet Azərbaycanına rəhbərlik edən şəxslər

Azərbaycanın taleyüklü problemlərini həll etməyə cəhd göstərsələr də, onların səyləri iflasa uğramışdı.

Ona görə də Azərbaycanın möhkəm, qətiyyətli, yüksək intelektual biliyə malik olan və milli-mənəvi dəyərlərə xüsusi qiymət verən rəhbərə ehtiyacı var idi. Bu rəhbər azərbaycan xalqının xilaskarı kimi dünyaya gələn Heydər Əlirza oğlu Əliyev idi.

Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə respublikada müxtəlif sahələrdə yüksək ixtisaslı kadrların hazırlanması prosesinə xüsusi diqqət və qayğı göstərilməsinə münbit şərait yaradıldı. Elə bu zəmində elm, təhsil və insan potensialının inkişafı, o cümlədən yeni-yeni dövlət proqramı layihələrinin həyata keçirilməsi istiqamətində bir çox mühüm qərarların qəbul edilməsinin əhəmiyyəti qısa zamanda təsirini göstərdi.

Bəhs edilən dövrdə Sovet İttifaqı respublikalarının bəzilərində durğunluq halları gücləndiyi halda, Azərbaycanın elm, təhsil və mədəniyyət sahələrində yüksəliş baş verdi. 1969-cu il avqust ayının 5-də Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (bundan sonra AKP MK) plenumunda Azərbaycanda sosial-iqtisadi sahədə yaranmış geriliyi təhlil edərək, elm, təhsil və kadr hazırlığı işində nöqsanların və problemlərin olduğunu və onların həllində təxirəsalınmaz addımlar atılmasının vacibliyini vurğuladı.

Bu baxımdan dissertasiya mövzusu tariximizin aktuallığını əks etdirən problemlərin öyrənilməsinə həsr olunmuşdur. Çünki, müstəqil Azərbaycan Respublikasında elm, təhsil və yüksək ixtisaslı kadr hazırlığı işində baş verən prosesləri o dövrkü hadisələrlə əlaqəli şəkildə öyrənmək, onların bir-birilə əlaqə formalarının necə inkişaf etdiyini izləmək, dövrün özünəməxsus və spesifik xüsusiyyətlərini sistemli araşdırmaq və müqayisəli təhlil etmək tədqiqat işinin aktuallığını xeyli artırır.

Tədqiq edilən dövrdə Azərbaycanda ali təhsil sahəsində böyük naliyyətlər əldə edildi. Belə ki, ali təhsil cəmiyyətin ahəngdar inkişafı ilə yanaşı, onun intelektual bazasının formalaşmasında mühüm əhəmiyyətə malikdir. Azərbaycanda ali təhsil sisteminin inkişaf dinamikası tədqiqat apardığımız dövrdə SSRİ-də həlledici göstəricilər üzrə özünəməxsus yerə sahib olması, sosial-iqtisadi və ümumilikdə bütün sahələrdə intensiv inkişafa təkan verən real qüvvə

kimi nəzərə çarpmışdı. Belə ki, bu dönəmdə ali məktəblərin sayı artmış, onların bir-biri ilə əlaqələri sıxlaşmış, dövlət tərəfindən proqram layihələri hazırlanmış və respublikadan kənara təhsil almağa göndərilən gənclərin sayı ildən-ilə artmışdı. Bu isə öz növbəsində yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanması sahəsində kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəldilməsi demək idi. Bütün bunlar tədqiqat işinin elmi aktuallığını şərtləndirən amillərdəndir.

Müasir dövrdə Azərbaycan təhsil sisteminin dünyanın qabaqcıl dövlətlərinin təhsil standartlarına uyğunlaşdırılması, elmi-texniki tərəqqinin inkişafı yeni texnologiyalarının təlim-tədris prosesinə geniş tətbiqi prosesini Azərbaycan SSR-də XX əsrin 70-80-ci illərin əvvəllərində eyni sahələrdə baş verən proseslərlə əlaqəli şəkildə öyrənmək tədqiqat işinin aktuallığını artırır.

Bütün sahələrdə olduğu kimi Azərbaycanda təhsil sahəsində həyata keçirilən siyasət Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin (bundan sonra Sov. İKP MK) sərt nəzarəti, təzyiqi və icazəsi ilə reallaşdırılırdı. Sovet siyasi sisteminin sərt senzura sistemi elə qurulmuşdu ki, ondan kənara çıxmaq olmazdı. Hər şey marksizm-leninizm ideologiyasına xidmət etməli idi. Lakin bütün bu çətinlikliklərə, təzyiqlərə baxmayaraq Heydər Əliyevin məqsədyönlü, qətiyyətli inkişaf strategiyası və şəxsi nüfuzu sayəsində qısa zaman ərzində respublikada bütün sahələrdə müsbət mənada köklü dəyişikliklər müşahidə etmək olardı. Bu səbəbdən tədqiqat mövzusunun araşdırılması və işlənməsi əhəmiyyətlidir.

Tədqiqatın aktuallığını artıran amillərdən biri də ondan ibarət olmuşdur ki, məhz Heydər Əliyevin respublikamıza ilk rəhbərliyi zamanında milli ziyalılar içərisində milli şüurun, özünədərkin və özünə qayıdışın yaranması cücərtiləri özünü göstərirdi. Prezident Sərəncamında qeyd edildiyi kimi, *"Ulu öndərin xalqın yaradıcılıq enerjisini bu məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı*

*təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir”*[1].

Bütün yuxarıda qeyd edilənlər Azərbaycan SSR-də yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və kadr siyasəti (XX əsrin 70-80-ci illərin əvvəlləri) adlı dissertasiya işinin elmi aktullığını şərtləndirən ən mühüm amillərdir.

Dissertasiya mövzusu ilə bağlı tədqiqat aparılarkən üstünlük arxiv sənədlərinə verilmişdir. Belə ki, Azərbaycan Respublikası Milli Arxiv İdarəsi və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər arxivlərindən götürülmüş sənəd və materiallar[2], habelə Heydər Əliyevin çıxış, məruzə və sərəncamları tədqiqatın mənbə bazasını təşkil edir. Bir çox arxiv sənədləri və materialları ilk dəfədir ki, tərəfimizdən elmi dövriyəyə cəlb edilmişdir.

Qeyd etmək lazımdır ki, 70-80-ci illərdə azərbaycanlıların bütünlüklə təhsilə cəlb olunması, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və onların müsabiqədənkənar SSRİ-nin nüfuzlu ali təhsil müəssisələrinə təhsil almaq üçün göndərilmələri haqqında Vətən tarixşünaslığında indiyə qədər əhatəli elmi-tədqiqat işi

---

[1]Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs ] / - Bakı, 29 sentyabr, 2022. URL: https://president.az/az/articles/view/57413

[2]Об итогах в высшие учебные заведения республики в 1969 году // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, Fond № 1, siyahı № 56, iş № 60, vərəq - 20; О ходе выполнения постановления ЦК КП Азербайджана от 30 июня 1967 года "О состоянии мерах улучшения подготовки научных кадров в республике" // ARPİİİSSA, Fond № 1, siyahı № 56, iş № 18, vərəq - 376; О мерах по дальнейшему улучшению подготовки квалифицированных рабочих в учебных заведениях системы профессионально-технического образования // ARPİİİSSA, Fond № 1, siyahı № 56, iş № 35, vərəq - 36; Об итогах социалистического соревнования районов республики за лучшую подготовку школ и других учреждений народного образования к 1975/1976 учебному году // ARPİİİSSA, Fond № 1, siyahı № 63, iş № 23, vərəq - 153; О проведении единовременного учета специалистов с высшим и средним специальным образованием по состоянию на 16 ноября 1970 г // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond 2672, siyahı № 5, iş № 155, vərəq - 12.

yazılmamışdır. Tədqiqat dövründə bir çox əsərlərdə hadisə və faktlar təkzib olunmuş, elmi nəticələr əsasən partiyalılıq prinsipi ilə əsaslandırılmışdı. Bu baxımdan tədqiqat işi ilə əlaqəli problemlərin araşdırılmasına həsr edilən elmi tədqiqatları şərti olaraq aşağıda şəkildə qruplaşdırmaq olar:

- Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda 1969-cu il avqust plenumunda müzakirə edilən məsələlərin araşdırılmasına aid olan tədqiqatlar;
- Azərbaycanda milli ruhda yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanması, onların yerləşdirilməsi ilə bağlı görülmüş işlərə aid olan tədqiqatlar;
- Azərbaycanda ordu quruculuğu işinin təşkili və yüksək ixtisaslı kadrların hazırlanması ilə əlaqədar hərbi məktəblərin fəaliyyətinə aid olan tədqiqatlar;
- Milli-mənəvi dəyərlərə söykənən, azərbaycançılıq və dövlətçilik ənənələrinə aid olan tədqiqatlar.

Tədqiq edilən dövrün tarixşünaslığında təhsil, ali məktəb quruculuğu ilə bağlı məsələlər Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Onun möhkəm təməllər üzərində əsasını qoyduğu gənclərin elmi-intelektual potensialının inkişafı və bu məqsədlə SSRİ-nin qabaqcıl ali təhsil ocaqlarına müsabiqədənkənar qəbulu məsələsi, milli vətənpərvər ruhda müxtəlif ixitisaslar üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlığı ilə bağlı proqramlar mühüm əhəmiyyətə malik idi. Bu məsələlər həm elmi araşdırmlarda, kollektiv tədqiqatlarda, ayrı-ayrı monoqrafiyalarda, həm də bir çox elmi əsər və məqalələrdə öz əksini tapmışdır.

M.Mehdizadə, T.Allahverdiyev və Q.Əliyevin[3], A.Atakişiyev və R.Süleymanovun[4] əsərlərində Azərbaycan SSR-də ümumi təhsilin inkişafı, ali və orta ixtisas təhsili müəsissələrin tabeliyində olan müəssisələrin tədris-maddi bazasının gücləndirilməsi, qarşıya çıxan problemlər və bu istiqamətdə görülmüş işlərin nəticələri haqqında

---

[3]Mehdizadə, M.M. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. / M.Mehdizadə, T.Allahverdiyev, Q.Əliyev - Bakı: Maarif, - 1980. - 270 s.

[4]Atakişiyev, A. Xalq maarifi və sosial tərəqqi. / A.Atakişiyev, R.Süleymanov - Bakı: ADU, - 1985. - 156 s.

məlumatlarla yanaşı, milli kadr hazırlığı məsələlərinə də yer verilmişdir.

Ulu Öndər Heydər Əliyevin imzaladığı qərarlar, təhsillə bağlı keçirilən tədbirlərdə, qurultaylarda və müşavirələrdə etdiyi məruzələr, verilən müsahibələr diqqətlə nəzərdən keçirilib öyrənilmiş və tədqiqat işində onlardan geniş şəkildə istifadə olunmuşdur. Heydər Əliyevin çıxışlarında, nitq və məruzələrində göstərilən faktlar, deyilən təkliflər və tövsiyələr tədqiqat işinin əsas mənbəşünaslıq bazasını təşkil etməkdədir. Buna görə də dissertasiya işinin hazırlanmasında göstərilən qaynaqlardan geniş şəkildə istifadə edilmişdir. Həmçinin 1998-2013-cü illərdə Azərbaycan Respublikasının Təhsil Naziri M.Mərdanovun redaktorluğu ilə Heydər Əliyevin 1969-cu ildən 2003-cü ilədək dövrdə Azərbaycanda təhsilin inkişafı ilə bağlı çıxışları toplu şəkildə çap olunmuşdur[5].

Eyni zamanda XX əsrin 60-cı illərinin sonundan 2000-ci illərin əvvəllərinə qədər Heydər Əliyevin Azərbaycanda təhsil quruculuğu və onun inkişafı ilə bağlı etdiyi çıxışlar M.Mərdanov və Ə.Quliyevin birlikdə yazıb ərsəyə gətirdikləri "Təhsil millətin gələcəyidir" əsərində də ətraflı və elmi əsaslarla təhlil edilmişdir[6].

İ.Hüseynovanın[7] 2005-ci ildə nəşr olunmuş monoqrafiyasının elmi, nəzəri, siyasi və praktik əhəmiyyəti vardır. Əliyevşünaslığa dəyərli töhfə olan bu fundamental monoqrafiyada Heydər Əliyevin siyasi karyerasının mərhələlərinin və əsas istiqamətlərinin arxiv materialları əsasında zəngin elmi əsaslarla işıqlandırılmasına həsr edilmişdir.

Y.Mahmudovun[8] əsərlərində Ulu Öndərin kommunist rejimi illərində xalqın milli mənlik şüurunun oyanması, milli müstəqillik

---

[5]Mərdanov, M. Azərbaycan təhsil tarixi [4 cilddə] / M.Mərdanov - Bakı: Təhsil,- c.2.- 2011. - 704 s.

[6]Mərdanov, M. Təhsil millətin gələcəyidir. / M.Mərdanov, Ə.Quliyev - Bakı: Təhsil, - 2002. - 574 s.

[7]Гусейнова, И. Гейдар Алиев-от политического руководителя к общенациональному лидеру / И.Гусейнова. - Баку: Тахсил, - 2005. - 501 с.

[8]Mahmudov, Y. Heydər Əliyev ideyalarının zəfər yürüşü / Y.Mahmudov. - Bakı: Təhsil,- 2011. - 608 s.; Mahmudov, Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti / Y.Mahmudov. - Bakı: Təhsil, - 2002. - 328 s.

hisslərinin baş qaldırması, gələcəkdə müstəqil Azərbaycanın qurulması üçün zəmin yaradılmasının əsaslarının qoyulduğu elmi baxımdan təhlil edilmişdir. Ulu Öndərin Respublika gününə həsr olunmuş 27 may 1994-cü ildə Respublika sarayında qeyd etdiyi: "*Azərbaycan xalqı həmin dövrdə mövcud şəraitə uyğunlaşsa da, eyni zamanda onun qəlbində tam müstəqillik, milli azadlıq hissləri yaşamışdır. Siyasi rejimdən, kiminsə əsarəti altında yaşamasından asılı olmayaraq, xalqımız həmişə milli azadlığa, istiqlala can atmışdır*" fikri gələcək nəsillərə çağırış idi[9].

Şərəfli və mənalı ömür yolunun böyük bir hissəsini xalqımızın, Azərbaycanın nicatına, inkişafına həsr etmiş Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaratmış, xalqı həqiqi müstəqilliyə qovuşdurmuş, ictimai şüurda əbədiyaşarlıq hüququ qazandırmışdır.

Heydər Əliyevin həyat və yaradıcılığından, bioqrafiyasının naməlum səhifələrindən V.Andriyanov və H.Mirələmov arxiv mənbələrinə, dostlarının, silahdaşlarının, yoldaşlarının və siyasi rəqiblərinin xatirələrinə əsaslanaraq bəhs edən rus dilində kitabı nəşr etdirilmişdir[10]. Bu əsər dahi şəxsiyyətin irsinin və fəaliyyətinin öyrənilməsinə uğurlu töhfədir. Eyni zamanda H.Mirələmovun müəllifi olduğu[11] kitabları da Heydər Əliyevin keçdiyi həyat yolunu əks etdirir.

Tədqiqat işi ilə bağlı mühüm məsələlər İ.Zeynalovun[12] monoqrafiyasında araşdırılmışdır. Monoqrafiyada müəllif Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadiyyatın inkişafından ötrü qalıcı stabil bir siyasətin aparılması üçün uğurlu işlərə imza atılması,

---

[9]Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Respublika gününə həsr olunmuş təntənəli yığıncaqda nitqi: [Elektron resurs] / 27 may, 1994. URL: http://anl.az/el/emb/Cumhuriyyet/nitqler/Heyder_Eliyev/27.05.1994.pdf

[10]Andriyanov, V. Mirələmov, H. Heydər Əliyev / Andriyanov, H. Mirələmov - Bakı: Nurlan, - 2008. - 558 s.

[11]Mirələmov, H. Zəfər yolu / H.Mirələmov. - Bakı: Gənclik, - 2003. - 70 s.; Mirələmov, H. Həqiqət publisistik düşüncələr / H.Mirələmov. - Bakı: Azərbaycan nəşriyyatı, - 2003. - 448 s.

[12]Zeynalov, İ. Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illər) / İ.Zeynalov. - Bakı: Bakı Universiteti, - 1996. - 314 s.

yüksəlişə nail olunması, mühüm sənaye komplekslərinin istifadəyə verilməsi, bütün sahələrdə əhəmiyyətli, hərtərəfli inkişafın əldə olunması kimi məsələləri təhlil etmişdir. Burada Azərbaycanın XX əsrin 70-80-ci illərindəki iqtisadi və sosial inkişafın məzmunu, aparıcı istiqamətləri və xüsusiyyətləri şərh edilmişdir. Həmçinin respublika sənayesinin aparıcı sahələrində qərarlar, nailiyyətlər, kənd təsərrüfatının xüsusi çəkisinin yüksəldilməsi və cəmiyyətin sosial həyatının başlıca problemləri ilə bağlı olan məsələlər geniş tədqiq edilmişdir. Bu əsərdə maraqlı və diqqəti çəkən məsələlərdən biri də tədqiq edilən dövrdə nöqsanlar və çətinliklər faktiki materiallar əsasında açılıb göstərilir və onların aradan qaldırılması yolları qeyd edilir.

M.Qasımlının redaktorluğu ilə nəşr olunmuş "Bakı Dövlət Universiteti 100 ilin elm və təhsil məbədi" adlı kitab mövzunun araşdırılması baxımından əhəmiyyət kəsb edir. Kitabda Heydər Əliyevin Bakı Dövlət Universitetinin inkişafında rolu, elm, təhsil və kadr strategiyası haqqında geniş məlumatlar öz əksini tapmışdır. Kitabda obyektiv olaraq qeyd edilir ki, Heydər Əliyev Azərbaycanda təhsilin yenidən qurulması, onun əhatə dairəsinin genişləndirilməsi, bu istiqamətdə mühüm layihələrin həyata keçirilməsi ilə yanaşı, ali və orta ixtisas təhsili müəssisələrində çalışan elmi pedaqoji fəaliyyətlə məşğul olan əməkdaşlara və müəllimlərə xüsusi diqqət və qayğı göstərirdi. Heydər Əliyevin yüksək ixtisaslı ali təhsilli kadr hazırlığı strategiyasından da bəhs edilən kitabda hərbi kadrların hazırlanması haqqında da bəzi maraqlı məlumatlara rast gəlinir[13].

A.Atakişiyevin[14] kitabı da qiymətli faktlarla zəngindir. Belə ki, tədqiqat əsərində ali təhsil ocağında tədris olunan fənlərinin keyfiyyətinin artırılması, elmi-tədqiqat işlərinin planlaşdırılmasının həyata keçirilməsi və s. üçün proqram xarakterli qərarların qəbul edilməsi məsələləri göstərilmişdir. Müəllifin əsərdə ali təhsil müəssisələrində tədris prosesi ilə bağlı irəli sürdüyü fikirlər bəhs edilən

[13]Bakı Dövlət Universiteti - 100 ilin elm və təhsil məbədi / Bakı Dövlət Universiteti; tərt.: A. İsgəndərov [et al.]; elmi red. M. C. Qasımlı; red.: Ə. Ağamirzəyev, Ə. Ağakişiyev.- Bakı: Nurlar NPM, - 2019.- 296 s.

[14]Atakişiyev, A. Azərbaycan Dövlət Universiteti / A.Atakişiyev. - Bakı: Bakı Universiteti, - 1991. - 528 s.

dövrdə (XX əsrin 70-80-ci illərin əvvəlləri) ali təhsil sistemində mövcud vəziyyətin öyrənilməsi baxımından əhəmiyyət kəsb edir.

Ordu quruculuğu və hərbi kadr hazırlığı ilə bağlı A.Qurbaninin[15] əsərlərinin araşdırılması təqdirəlayiq haldır. Ulu Öndərin çıxışlarında XX əsrin 70-80-ci illərində Azərbaycanda ordu quruculuğu və yüksək ixtisaslı ali təhsilli hərbi kadrların yetişdirilməsi kimi məsələlər xüsusilə diqqətdə olmuşdur. Müəllif "Heydər Əliyev və Azərbaycan ordusu" kitabında isə 1969-cu il iyulun 14-də hakimiyyətə gələn Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, hərbi təhsil sferasında atdığı addımları da ordu quruculuğunda yeni mərhələnin başlanğıcı olduğunu qeyd etmişdi. Bütün bunlarla yanaşı, kitabda gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsində, C.Naxçıvanski adına hərbi liseyin yaradılmasının hərb tariximizdə önəmi göstərilmişdir.

Tədqiqat prosesində çox cildlik kitablara da müraciət edilmişdir. Belə ki, "Müstəqilliyimiz əbədidir" adlı çox cildlikdə Heydər Əliyevin çıxışları, fikirləri və fəaliyyəti ilə bağlı məsələlər xronoloji ardıcıllıqla nəşr edilmişdir. Bu fundamental külliyyat 45 cilddən ibarətdir və mənbəşünaslıq baxımdan mühüm əhəmiyyətə malikdir[16]. Heydər Əliyevin çıxışları, məruzə və nitqləri külliyatda diqqətlə öyrənilmiş və bu zəngin mənbədən xeyli faydalanaraq bir çox faktlar və rəqəmlərdən istifadə edərək hər bir problemin izahına dair sitatlar göstərilmiş və maddi sübut kimi əhəmiyyəti qeyd edilmişdir.

H.Adıgüzelin[17] və İ.Ülkünün[18] əsərlərində də Heydər Əliyevin uzun müddət xidmət etdiyi Kommunist partiyası sistemində

---

[15]Qurbani, A. Heydər Əliyev məktəbi / A.Qurbani. - Bakı: Hərbi nəşriyyat, - 1996. - 60 s.; Qurbani, A. Heydər Əliyev və Azərbaycan ordusu / A.Qurbani. - Bakı: Əbilov, Zeynalov və oğulları, - 2002. - 392 s.

[16]Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. - Bakı: Azərnəşr, - c. 1. - 1997. - 608 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. - Bakı: Azərnəşr, - c. 2. - 1997. - 604 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. - Bakı: Azərnəşr, - c. 3. - 1997. - 488 s. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. - Bakı: Azərnəşr, - c. 4. - 1997. - 528 s.

[17]Hüseyn, A. Zirve: Haydar Aliyev'in hayatı / H.Adıgüzel. - İstanbul: İleri yayınları, - 2007. - 493 s.

qazandığı təcrübə, uzun illər sovet inzibati-amirlik rejimində olan bir xalqın içindən belə yüksək lider keyfiyyətlərinə sahib şəxsin çıxması və bu təcrübə nəticəsində onun Azərbaycan SSR-də həyata keçirdiyi uğurlu tədbirlər ətraflı təhlil edilmişdir.

Sovet və rus yazıçısı A.Lixanovun kitabında[19] 1985-ci ildə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin sosial problemlərin həlli ilə bağlı qərarlarının hazırlanmasında və qəbul olunmasında Heydər Əliyevin böyük xidmətləri öz əksini tapmışdır. Kitabda həmçinin Heydər Əliyevin Azərbaycanın inkişafında xidmətləri də çoxsaylı faktoloji materiallara əsasən təhlil edilir.

Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbərlik dövrünün öyrənilməsi baxımından N.Zenkovichin[20] əsəri də diqqət cəlb edir.

XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-də kadr hazırlığı istiqamətində görülən işlərlə bağlı Avropa və Amerika tarixşünaslığında bəzi kitablar və elmi məqalələr yazılmışdır. Belə ki, C.Svante[21] və G.Wilson[22] öz əsərlərində Azərbaycanla bağlı bir sıra məsələlərə, o cümlədən də sovet dövrünə yer vermişdilər. Onların əsərində Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbərlik dövrü haqqında məlumatlara rast gəlinir.

G.Wilson öz əsərində qeyd edirdi ki, Heydər Əliyev ali təhsil müəssisələrinə tez-tez ziyarətlər təşkil edir, onların problemlərini dinləyir, SSRİ-nin nüfuzlu müxtəlif şəhərlərində yerləşən ali təhsil ocaqlarında təhsil almaq istəyən gəncləri dəstəkləyirdi.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqat işinin obyekti respublika üçün müxtəlif sahələr üzrə yüksək ixtisaslı kadr hazırlığı, predmeti isə tədqiqat aparılan dövrdə ali təhsil müəssisələrinin

---

[18]İrfan, Ü. Kızıl Yıldızdan Hilale Haydar Aliyev'in Fırtınalı Hayatı / Ü.İrfan. - İstanbul: Milenyum yayınları, - 2017. - 207 s.

[19]Лиханов, А: Не иссякнет в памяти (о Гейдаре Алиеве) / Альберт Лиханов. - Москва: - 2020. - 128 с.

[20]Zenkovich, N. Heydar Aliyev. Life and Fate / N.Zenkovich. - Moscow: - 2007. - 464 p.

[21]Cornel, S. Azerbaijan Since Independence. / S.Cornell. - Nyu-York: Armonk, - 2011. - 485 p.

[22]Wilson, G. Heydar: the rise and fall and rise again of Heydar Aliyev and Azerbaijan / G. Wilson. - London: Media Prima, - 2013. - 600 p.

bakalavr və doktorantura pillələrində tədrisin təşkili və idarə olunması ilə bağlı fəaliyyəti, habelə SSRİ-nin nüfuzlu ali təhsil müəssisələrinə müsabiqədənkənar gənclərin göndərilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Mövzunun araşdırılmasında əsas məqsəd Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan SSR-də yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və kadr siyasəti prosesinin ətraflı şəkildə tədqiq edilməsi və əldə edilən nəticələrin elmi dövriyyəyə daxil edilməsidir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsinə cəhd edilmişdir:

- Azərbaycan tarix elmində problemin kompleks və sistemli şəkildə araşdırılması;
- 1969-cu il avqust plenumundan sonra Azərbaycanda ali hakimiyyət orqanlarının respublikada sosial, mədəni-maarif sahələrində baş vermiş problemlərin həllində rolunun müəyyənləşdirilməsi və nöqsanların aradan qaldırılması cəhdlərinin təşkilati-siyasi fəaliyyətinin qiymətləndirilməsi;
- XX əsrin 70-80-ci illərinin əvvəllərində Azərbaycan SSR-də ali təhsil sistemində formalaşmış mövcud vəziyyətin araşdırılması və təhlili;
- Heydər Əliyevin milli kadr strategiyasının həyata keçirilməsi ilə uğurlu nəticələrə nail olunmasının tədqiqi və təhlili;
- Yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanması işinin nəzəri-metodoloji problemlərinin və elmi-praktik nəticələrinin araşdırılması və öyrənilməsi;
- İntellektual səviyyəli, müasir tələblərə cavab verən yüksək ixtisaslı mütəxəssis kadrlara, xüsusilə pedaqoji kadrlara olan real tələbatın müəyyənləşdirilməsi;
- Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dövründə ordu quruculuğu işinin təşkili və hərb sahəsində yüksək ixtisaslı kadr hazırlığı məsələlərinin mənbələr əsasında tədqiq və təhlili;
- Yüksək peşə hazırlığına sahib hərbi qulluqçuların sayının tədricən artırılması hesabına komplektləşdirmə sisteminin təkmilləşdirilməsini izləmək;

- Kadrların seçilməsi və yerləşdirilməsi istiqamətində tədbirləri daha da genişləndirmək, qarşıya qoyulmuş meyarların və görülən işlərin aktivlik səviyyəsinin araşdırılması;
- Göstərilən məsələlərin sistemli-müqayisəli formada və tarixi-xronoloji ardıcılıqla izah və təhlil edilməklə dərindən araşdırılması və konket nəticələrə nail olunması.

**Tədqiqatın metodları**. Tədqiqat zamanı materialların toplanması və sistemləşdirilməsi üçün bir neçə metoddan istifadə edilmişdir. Tədqiqat mövzusu üzrə xüsusi təsviri-ədəbiyyatın, arxiv sənədlərinin öyrənilməsi, analizi və sintezi, komparativ-respublikanın və xarici ölkələrin ali məktəb modellərinə inteqrasiyası kimi vacib metodlardan bəhrələnmişdir. Həmçinin məsələlərin məntiqi, tarixi, eyni zamanda problemlərin obyektiv işıqlandırılması üçün müqayisəli təhlil və statistik metodundan da istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat mövzusunun aktuallığını nəzərə alaraq aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

- Heydər Əliyevin Azərbaycana ilk rəhbərliyi dövrü ilə səciyyəvi olan respublikada ali təhsil sahəsində həyata keçirilən genişmiqyaslı layihələrinin uğurla yerinə yetirilməsi respublikada sosial-iqtisadi mühitin davamlı inkişafı üçün zəmin yaratdı;
- Göstərilən dövrdə ali təhsil müəssisələrinə qəbul strategiyası ilə bağlı yaradılan hazırlıq kurslarında yüksək ixtisaslı mütəxəssislərin hazırlanması təhsildə keyfiyyətin yüksəlməsinə ciddi təsir etdi;
- XX əsrin 70-80-ci illərin əvvəllərində azərbaycanlı gənclərin SSRİ-nin nüfuzlu ali hərbi müəssisələrində təhsil almaları üçün göndərilmələri, həmçinin respublikada bir sıra ali hərbi müəssisələrin yaradılması bu gün ali hərbi təhsil müəssisələri şəbəkəsinin fəaliyyətinin təkmilləşdirilməsinə ciddi təsir göstərmişdir;
- ali təhsil tarixinin öyrənilməsi, onun ayrı-ayrı dövrlərdə inkişaf istiqamətlərini müəyyənləşdirməyə, təhsilin məzmunu, təşkili formalarını ümumiləşdirməyə, dövlətin

təhsil sahəsində apardığı siyasətin zəruriliyini üzə çıxarmağa və beləliklə, təhsil sisteminin təkmilləşdirilməsi sahəsində uğurlu nəticələrə nail olmağa tarixi şərait yaranmışdır.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat nəticəsində aşağıdakı elmi yeniliklərə nail olunmuşdur:

- Vətən tarixşünaslığında ilk dəfə olaraq Azərbaycan SSR-də yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və kadr siyasətinin (XX əsrin 70-80-ci illərin əvvəlləri) həyata keçirilməsi sahəsində Heydər Əliyevin fəaliyyəti kompleks şəkildə tədqiq edilmişdir;
- Yüksək ixtisaslı mütəxəssislərin hazırlanması siyasətinin öyrənilməsi məqsədi ilə beynəlxalq təcrübədə qəbul olunmuş anlayışlar, müxtəlif illərdə qəbul olunmuş milli prioritet strategiyaları və rəhbər direktivlər nəzərdən keçirilmiş və 1969-cu il avqust plenumundan sonra respublikanın sosial-iqtisadi, elm və təhsil sahələrində inkişaf siyasəti konkret faktlar əsasında araşdırılmışdır;
- SSRİ-nin nüfuzlu ali təhsil müəssisələri ilə respublika ali təhsil müəssisələri arasında tələbə-müəlim mübadiləsi və təcrübəsi sistemli-müqayisəli formada tədqiq edilmişdir;
- Yüksək ixtisaslı mütəxəssislərin hazırlanması məqsədi ilə hərbi kadrların hazırlığı işinin təkmilləşdirilməsi prosesi nəzəri-praktik baxımdan izah və təhlil edilmişdir;
- təhsilin və milli kadrların hazırlığı və inkişaf strategiyası ilə bağlı arxiv sənədləri, statistik külliyatlar, müxtəlif nəşrlər və digər materiallar öyrənilərək elmi aparata daxil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat prosesinə cəlb edilmiş materiallar mühüm elmi və nəzəri əhəmiyyət kəsb edir. Elmi nəticələrin tətbiqi ilə bağlı verilən tövsiyyələr tarixi tədqiqatların aparılmasında, “Azərbaycan tarixi”, “Azərbaycanın müasir dövlətçilik tarixi”, “Multikulturalizmə giriş” kimi fənnlərdə, habelə xarici siyasətlə məşğul olan dövlət orqanları tərəfindən istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas məzmunu ilə bağlı elmi nəticələr yerli və beynəlxalq elmi konfrans materiallarında o cümlədən jurnallarda öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Tədqiqat işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya işi giriş (34792 işarə), I fəsil (72429 işarə), II fəsil (65112 işarə), III fəsil (57476 işarə) və nəticə (13524 işarə) hissələrindən ibarət olmaqla ümumilikdə 243333 işarədən ibarətdir.

## II. DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, dissertasiya işinin məqsəd və vəzifələri, tədqiqat obyekti verilmiş, xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi, mənbə bazası, tədqiqat metodları göstərilmiş, işin aprobasiyası, praktiki əhəmiyyəti şərh edilmiş və dissertasiyanın strukturu verilmişdir.

Dissertasiyanın birinci fəsli **"Azərbaycan SSR-də elm və təhsil sisteminin vəziyyəti (XX əsrin 70-ci illəri-80-ci illərin əvvəlləri)"** adlanır və 2 yarımfəsildən ibarətdir. **"Elm və təhsil sistemində mövcud nöqsanların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər (1969-1982-ci illər)"** adlanan birinci yarımfəsildə Heydər Əliyevin təhsil sistemində mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində gördüyü mühüm işlərdən bəhs edilir. Qeyd etmək lazımdır ki, Azərbaycanın çoxəsrlik milli dövlətçilik tarixində XX əsrin 70-80-ci illərinin əvvəlləri elm və təhsil sistemində yeni inkişafın və nailiyyətlərin başlandığı bir dövr olmuşdur. Məhz həmin dövrdən bu istiqamətdə strateji əhəmiyyətli addımlar atılmağa və işlər görülməyə başlandı ki, bunun da əsasında 1969-cu il 5 avqust plenumu dururdu.

Azərbaycanda sovet rejiminin formalaşmasına baxmayaraq 1970-ci ildən etibarən ölkənin siyasi rəhbərliyinin səyi nəticəsində təhsilin inkişafında müsbət addımlar atılmışdı. Heydər Əliyevin milli ideologiya və təhsilin məzmunu ilə bağlı praktiki fəaliyyətində əsas məqsəd milli dövlətçilik ideyaları, onların mahiyyəti və əhəmiyyətinin Azərbaycan gəncliyinə çatdırılması və öyrədilməsi idi. Həmçinin təhsil müəsisələrində, xüsusilə ali təhsil

müəsisələrində tələbələrə lazımi tədrisin zəruriliyi haqqında dəyərli konseptual fikirlərin aşılanması mühüm yer tuturdu. Heydər Əliyev təhsili "*millətin gələcəyi, müstəqil dövlətin təməli*" adlandırmış və demişdi ki, "*cəmiyyət təhsilsiz yaşaya bilməz*"[23]. Uzun illər ərzində müxtəlif sahələrdə, o cümlədən təhsil sferasında dərinləşən nöqsanların aradan qaldırılması istiqamətində addımların atılmaması bu problemlərin həllini xeyli çətinləşdirmişdi. Əvvəlki illərdən qalaq-qalaq yığılıb qalmış nöqsanlar bir çox sahələrdə mövcud idi və bu nöqsanlar cəmiyyətin sosial-iqtisadi inkişafına əməlli-başlı əngəl törədirdi. Bu nöqsanların və neqativ halların aradan qaldırılması, şəffavlığın təmin edilməsi, inkişafa nail olunması həmin dövr üçün ele də asan məsələ deyildi. Ancaq bütün çətinliklərə baxmayaraq avqust plenumu ölkədə dönüş yaratdı. Belə ki, bu vaxta qədər kök salmış nöqsanların və neqativ halların baş vermə səbəbləri göstərilməklə, qarşıdakı yeni və mühüm vəzifələr müəyyənləşdirildi, bütün dövlət və hökümət strukturlarına konkret tapşırıqlar verildi. Bu baxımdan avqust plenumunun ölkə tarixində mühüm rolu oldu.

Bəhs edilən dövrdə təhsil sahəsində mövcud problemlərin həll edilməsi, insan kapitalının yaxşılaşdırılması, gənc nəslin ali təhsil sisteminə cəlb edilməsi, onlardan yüksək ixtisaslı kadrlar hazırlanması, bu kadrların düzgün seçilib yerləşdirilməsi və bütövlükdə kadr siyasətinin düzgün aparılması üçün ciddi qərarların icra mexanizmini sağlamlaşdırmaq istiqamətində təsirli tədbirlər nəticəsində elm, təhsil sferasında inkişafa nail olundu.

**"Gənclərin təhsil imkanlarının genişlənməsində və intelektual bazasının formalaşmasında respublikadankənar təhsil proqramının rolu"** adlanan ikinci yarımfəsildə isə respublikada yüksək ixtisaslı gənc mütəxəssis kadrların hazırlanması məsələsinə Heydər Əliyevin xüsusi diqqəti işıqlandırılmışdır. Xüsusilə vurğulamaq lazımdır ki, Heydər Əliyevin dövründə ölkənin və millətin aparıcı qüvvəsi olan kadrlar

[23]Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi: [Electron resurs] / - Bakı, 11 fevral, 2000. URL: https://lib.aliyevheritage.org/az/8202766.html

və bununla bağlı aparılan kadr siyasəti dövlətin prioritet məsələlərindən birinə çevrildi. Buna görə də kadr hazırlanması problemini həll etmək və hətta mövcud kadrların ixtisasını yüksəltmək məqsədilə həm ölkə daxilində, həm də respublikadan kənar təhsil və kadr məsələlərinin həllinə dair işlərə start verildi. Respublikadan kənara göndərilən gənclərin seçilməsi məsələsinə aidiyyati orqanlara və nazirliklərə göstəriş verildi. O ki, qaldı respublika daxilində çalışan kadrların kəmiyyət və keyfiyyət tərkibi ciddi şəkildə yoxlanılmağa başlandı. Unutmaq olmaz ki, əvvəlki illərdən qalan streotiplərin təmizlənməsi həm vacib problem idi, həm də olduqca çətin idi. Lakin çətinliklərə baxmayaraq respublikada kadrların yoxlanılması və uyğun vəzifələrə yerləşdirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirilməyə başlandı. Əsas diqqət kadr siyasətində baş verən nöqsanlara və çətinliklərə yönləndirildi. Aydın oldu ki, əvvəlki illərdə yığılan nöqsanlar hələ də qalmaqdadır. Buna görə də təmizlik işləri və nöqsanların aradan qaldırılması üçün aparılan işlər sürətləndirildi.

Araşdırmalar zamanı məlum olmuşdur ki, respublikada yüksək ixtisaslı ali təhsilli kadrların hazırlanmasında respublikadan kənar təhsil proqramlarının da rolu böyük olmuşdur. Respublikadan kənar təhsil proqramlarına əsasən həm ölkəmiz üçün, həm də *"dost"* ölkələr üçün kadrlar hazırlanırdı. Bir mühüm məsələni də xüsusi olaraq qeyd etməliyik ki, respublikadan kənar təhsil proqramlarının hazırlanması, zaman-zaman onların təkmilləşdirilməsi, təhsil-tədris proqramlarının inkişafına müsbət təsir göstərmişdir. Bu isə müttəfiq respublikalardan və digər dövlətlərdən gələn əcnəbi vətəndaşların ölkəmizdə təhsil almalarına və təhsildə inteqrasiya proseslərinin sürətlənməsinə mühüm təsir göstərmişdir. Beləliklə də aydın olur ki, SSRİ təhsil sisteminin tərkibinə daxil olsa da, Azərbaycan elm və təhsil sistemi Sovetlər birliyində qabaqcıl təhsil sistemi kimi formalaşmış və İttifaqda da, xarici ölkələrdə də diqqət mərkəzində olmuşdur. Əcnəbi tələbələrin Azərbaycanı seçməsi ölkəmizin təhsil sahəsində qazandığı uğurların nəticəsi idi.

Beləliklə, Heydər Əliyevin gərgin iş prinsipi sayəsində elm və təhsil istiqamətləri üzrə aparılan islahatlar nəticəsində təhsilin bütün pillələrində tərəqqiyə nail olundu:

- Respublikanın şəhər, rayon və kəndlərində yeni tipli məktəb binalarının tikilməsi, müəllim kadrlarının hazırlanması və dövlət qayğısı ilə əhatə olunmasında uğur əldə olundu;
- Elm ocaqları və Ali təhsil müəssisələrində doktorantura pilləsində ciddi dəyişikliklər həyata keçirildi;
- İttifaq reytinq cədvəlində Azərbaycan ali məktəblərinin səviyyəsinin yüksəlməsi nəticəsində bir çox ixtisaslar üzrə Azərbaycan ali məktəblərində təhsil alan əcnəbi tələbələrin kontingenti böyüdü. Beləliklə, Azərbaycan nəinki İittifaq respublikalar üçün, həmçinin bir çox sosialist dövlətləri üçün kadr hazırlayan respublikaya çevrildi.

Dissertasiyanın **"Respublikada yüksək ixtisaslı milli kadrların hazırlanmasında yeni mərhələ"** adlanan və iki yarımfəsildən ibarət olan ikinci fəsildə Heydər Əliyevin dövründə Azərbaycanda milli kadrların yetişdirilməsi üçün görülən işlər nəticəsində hazırlanan yüksəkixtisaslı mütəxəssislərin elmi-texniki tərəqqinin inkişafında rolundan bəhs edilir.

**"Heydər Əliyevin dövlət quruculuğu sahəsində milli kadr strategiyası"** adlı birinci yarımfəslində XX əsrin 60-cı illərin sonu-70-ci ilin əvvəllərində Heydər Əliyevin həyata keçirdiyi uğurlu islahatlar və onların nəticələri haqqında məlumat verilir. Məhz bu islahatların nəticəsi idi ki, Bakı şəhəri sürətlə inkişaf etdi və Bakı şəhəri üzrə azərbaycanlıların sayının artdı. Bununla yanaşı cəmiyyətdə yüksək intellektə malik insanların sayının əvvəlki illərlə müqayisədə daha da çoxaldı.

Beləliklə, Heydər Əliyevin düzgün və məqsədyönlü daxili siyasət strategiyası XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-də bir çox sahələrdə olduğu kimi, təhsil və elm sferasında nöqsanların aradan qaldırılmasına şərait yaratmaqla düzgün kadr siyasətinin formalaşmasına və Azərbaycanın gələcək inkişafı naminə yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynadı. Heydər Əliyevin milli kadr hazırlığı konsepsiyasına uyğun olaraq təsərrüfatın müxtəlif sahələri, o cümlədən hərb işinin təşkilində

gərəkli olacaq kadrların yetişdirilməsi geniş vüsət aldı. Bu baxımdan qeyd edə bilərik ki, Heydər Əliyevin milli kadr hazırlığı strateji xarakter daşımaqdadır.

Ali məktəblərə və texnikumlara daha hazırlıqlı gənclərin qəbul edilməsi, bu işdə yol verilən mənfi halların kökünün kəsilməsindən ötrü lazımi tədbirlər hazırlanıb həyata keçirilmişdir.

Dövlət strategiyası nəticəsində, daim artan professor-müəllim heyətinin böyük yaradıcı əməyi, rektorluqların və ictimai təşkilatların səyləri sayəsində respublikanın ali məktəbləri dövlət, iqtisadi və mədəni quruculuğun bütün sahələri üçün yüksək ixtisaslı milli kadrlar hazırlığını getdikcə genişləndirmiş və yaxşılaşdırmışdı.

İkinci fəslin **“Elmi-texniki tərəqqinin inkişafında yüksək ixtisaslı kadrların rolu”** adlanan ikinci yarımfəslində isə bəhs edilən dövrdə elmi-texniki tərəqqinin inkişafı araşdırılmışdır.

XX əsrin 60-cı illərin sonlarından etibarən dünyada, Sovet İttifaqında, habelə Azərbaycanda elmi-texniki tərəqqinin inkişafında yeni dövr başlayır. Beynəlxalq münasibətlər çərçivəsində bu yeni modern duruma xüsusi diqqət verilməsi təsadüfi deyildi. Respublikada elmi-texniki tərəqqinin üstünlüklərinə ciddi diqqət verən Heydər Əliyev yüksək ixtisaslı milli kadrların hazırlanmasını təmin etmək üçün dövlət əhəmiyyətli layihələrin həyata keçirilməsinə start verdi. Respublikada müasir elmi-texniki tərəqqini surətləndirmək, elm və texnikanın nailiyyətlərini istehsalatda tezliklə tətbiq etmək sahəsindəki tədbirlərin həyata keçirilməsi istehsalın iqtisadi səmərəsinin yüksəldilməsinə, xalq təsərrüfatınn inkişafının surətlənməsinə zəmin hazırladı. Həmçinin bu istiqamətdə müəyyənləşdirilmiş vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsini təmin etmək üçün vacib və zəruri göstərişlər verildi.

Məlum olduğu kimi, iqtisadi gücü ilə dünya siyasi arenasında söz sahibi olan, tarixən bunu qoruyan bir çox dövlətin gələcək taleyini zəngin təbii qaynaqlar deyil, xüsusilə, elmi-intelektual potensiala sahib yüksək ixtisaslı kadrlar müəyyən edir. Məhz Azərbaycanda bu dövrdə iqtisadiyyatın yüksəldilməsi, xalqın rifahının yaxşılaşdırılması və elmi-intellektual potensialın bu yöndə

istifadə edilməsi üçün addımlar atıldı. Azərbaycan Respublikasının Prezidenti, İ.Əliyev çıxışlarının birində *"İqtisadi inkişaf sürətinə görə, Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir*" demişdi[24].

Göründüyü kimi, Azərbaycanın bu dövrdə iqtisadiyyatının, sənayesinin və təhsilinin daha da sistemli və planlı şəkil almasında Heydər Əliyevin həyata keçirdiyi siyasi xətt mühüm əhəmiyyət kəsb edirdi. Eləcə də Heydər Əliyev çalışırdı ki, Azərbaycanda humanitar-ictimai və fundamental elmlər sahəsi yenilənərək ictimai-iqtisadi formasiyanın reallıqlarına cavab versin. Bununla da Heydər Əliyev Azərbaycanda dövlət və dövlətçiliklə bağlı praktiki məqsədlərin təkmilləşdirilməsində, milli maraq və mənafelərin, həmçinin milli ideologiyanın möhkəmlənməsində bunu aparıcı amilə çevirmək istəyirdi. Quruculuq dövrü adlandırdığımız bu illərdə ən mühüm quruculuq işlərinin tərkib hissəsi olan elm və mədəniyyətin gələcək inkişafı müstəsna əhəmiyyətə malik olmuşdur. Bu isə Heydər Əliyevin milli siyasətinin təntənəsi idi.

Deməli, Azərbaycanda milli kadrların hazırlanmasında yeni mərhələ hesab edilən bu dövr bir çox xüsusiyyətləri ilə tarixə daxil oldu:

- Ölkə üzrə milli kadr hazırlığı İttifaq rəhbərliyi səviyyəsində Azərbaycana olan münasibəti müsbətə doğru dəyişdirdi.
- Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında inqilabi dəyişikliklər baş verdi. Milli ictimai şüurun formalaşmasında bir çox uğurlara imza atıldı[25].

**"Azərbaycan SSR-də hərbi kadr potensialının inkişafında Heydər Əliyevin rolu və xidmətləri. Yüksək ixtisaslı mütəxəssislərin seçilməsi və yerləşdirilməsində dövlət siyasəti"** adlanan üçüncü fəsil iki yarımfəsildən ibarətdir. **"Respublikada**

---

[24]Məhərrəmov, A. Elmi əsaslarla söykənən davamlı inkişaf strategiyasının müəllifi: [Elektron resurs] / - Bakı, 2014. URL : https://dq.mia.gov.az/upload/3.pdf
[25]Abbasov, V. Liderlik fəlsəfəsi / V.Abbasov. - Bakı: Təhsil, - 2004. - 204 s.

**hərbi işin vəziyyəti və yüksək ixtisaslı kadrların hazırlanmasına dövlət qayğısı”** adlanan birinci yarımfəsildə qeyd edilir ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dövründə hərbi təhsil sisteminə diqqət və qayğı, bu istiqamətdə bir çox dövlət və hökümət qərarlarının qəbulu tarixi zərurətdən irəli gəlirdi. Azərbaycanın gələcəyini uzaqgörənlikə düşünən dahi rəhbər mütəxəssis milli hərbiçi kadrların hazırlanmasına böyük ehtiyacın olacağını görürdü. Buna görə də, Heydər Əliyevin dövlətçilik fəaliyyətində ordu quruculuğu mühüm yer tuturdu. Müasir Müstəqil Azərbaycanın tarixi taleyində güclü ordunun rolu Heydər Əliyevin uzaqgörən diplomatiyasının həyatiliyini bir daha təsdiq etməkdə və bugün də uğurla davam etdirilməkdədir.

Deməli, Heydər Əliyevin uzaqgörənliyi nəticəsində bu gün hərbi xərclərə ayrılan maliyyə vəsaitlərinin artırılması, ordu sıralarının müxtəlif kateqoriyalara sahib zabit kadrlarla təmin edilməsi məsələlərinin potensial imkanları nəzərə alınaraq hərbi təhsil sisteminin inkişaf etdirilməsi təmin edilmişdi. Bu təhsil sistemi uzun illər boyu Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi üçün səmərəli fəaliyyətini davam etdirəcəkdir. SSRİ tərkibində, yüksək ixtisaslı milli zabit kadrların hazırlanması ilə bağlı atılan addımlar böyük risk və qətiyyət tələb edirdi. Heydər Əliyevin cəsarəti, qətiyyəti və səmərəli fəaliyyəti nəticəsində milli zabit kadrların yetişdirilməsində misilsiz nailiyyətlər əldə olundu.

Bu nailiyyətlər, 2020-ci il 27 sentyabr tarixində başlayıb 10 noyabr tarixinədək davam edən 44 günlük Vətən müharibəsində, eləcə də 2023-cü il 19 sentyabr tarixində 23 saatlıq antiterror əməliyyatında öz bəhrəsini verdi.

**“Mütəxəssis kadrların seçilməsi, yerləşdirilməsi və strateji fəaliyyət istiqamətləri”** adlı ikinci yarımfəsildə kadrların seçilməsi, hazırlanması və yerləşdirilməsi bütün zamanlarda, o cümlədən Sovetlər İttifaqı zamanında da mühüm dövlət siyasəti olmasından bəhs edilmişdir. Təsadüfü deyil ki, *“kadrlar hər şeyi həll edirlər”* şüarı sovet dövlət aparatında daxili siyasətin prioritet məsələsi idi. Problemin vacibliyini çox gözəl bilən Heydər Əliyev rəhbərliyə gəldiyi ilk günlərdən səriştəli və işi bilən, ixtisaslı mütəxəssislərin hazırlanması və yerləşdirilməsi probleminə xüsusi

diqqət verməyə başladı. O da aydın idi ki, Heydər Əliyevin rəhbərliyə gəlməsinə qədər respublikada kadrlar məsələsində nöqsanlar qalmaqda idi. Buna görə də kadr məsələləri həm çətin, həm də mürəkkəb məsələ idi. Deməli həm köhnədən qalan kadrlar məsələlərində nöqsanlar aradan qaldırılmalı, yeniləşdirilməli, həm də ixtisaslı ali savadlı kadrlar hazırlamaq lazım idi.

Kadrların seçilməsi işində Heydər Əliyevin ən mühüm fikir verdiyi cəhətlərindən biri o idi ki, bütün kadrlara obyektiv, eyni tələblərlə yanaşılsın. İdarəetmə strukturlarında ilk növbədə partiya komitələrində nazirlik və təşkilatlarda, ali məktəblərin rəhbərliyində təmizlənmə işi aparıldı, rüşvətxorlar, dələduzlar, işbazlar rəhbər vəzifələrdən uzaqlaşdırıldı. Kadrların seçilməsində vəzifəsindən, rütbəsindən asılı olmayaraq, hamıya eyni tələbkarlıqla yanaşılırdı. Təyin edilən kadrların savadlılığına, işgüzarlığına xüsusi diqqət yetirilirdi.

Qeyd etmək lazımdır ki, əvvəlki illərdə olduğu kimi, bu dövrdə də bir çox təhsil müəssisələrində gənclərin təyinatı məsələlərinə ciddi məsuliyyətlə yanaşılması aktual məsələlərdən biri kimi qalırdı. Bununla əlaqədar olaraq 1983-cü ilə dair təyinatlı gənclərin yerləşdirilməsi barədə ümumi fəaliyyətin yaxşılaşdırılması istiqamətində təkliflər və hesabatlar müzakirə olunaraq, müvafiq qərarlar qəbul edilmişdi. Qərarların icrası, gənc kadrların seçilməsi və işə götürülməsi bir qayda olaraq Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılmışdı. Kadrlar şöbəsinin və gənc kadrların təyinatlandırılması idarəsinin rəhbəri K.Əliyev 1983-cü il məzunlarınının 1984-cü ilin I rübünədək məzun olduqları sahələr üzrə yerləşdirilməsi ilə bağlı hesabatını kollegiyanının müzakirəsinə təqdim etdi. Müzakirədən sonra 1984-cü il 15 fevral tarixinədək təyinatlı kadrların yerləşdirilməsinə dair hesabatlar nəzarətə götürüldü. Ümumiyyətlə, Azərbaycan hökuməti və müvafiq qurumların fəaliyyətində bu məsələlər daim diqqətdə saxlanılmışdır.

Beləliklə, milli kadrların hazırlanması sahəsində Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət həm öz zamanında bəhrəsini verdi, həm də sonrakı dövrdə xüsusilə, milli siyasətdə həyata keçirilən strateji xətt xalq təsərrüfatının müxtəlif sahələri və

hərbi iş üçün ixtisaslı kadr potensialının formalaşmasına gətirib çıxardı. Heydər Əliyevin Azərbaycana ilk rəhbərliyi dövründə həyata keçirdiyi taleyüklü quruculuq işləri nəticəsində respublikanın hərtərəfli inkişafı təmin edilmiş, ölkəmiz İttifaq respublikaları içərisində qabaqcıl respublikaya çevrilmişdir.

**Uzunmüddətli ciddi, əhatəli və kompleks tədqiqatlar prosesində aşağıdakı elmi nəticələr əldə edilmişdir:**

1. Heydər Əliyevin rəhbərliyi ilə respublikada bütün sahələrdə olduğu kimi təhsil və elm sahələrində də dərin islahtlar aparılmaqla cddi nailiyyətlər qazanıldı. Təhsil sisteminin inkişafı ilə bağlı mühüm proqramlar hazırlandı və həyata keçirildi. Təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirildi, çoxlu sayda tədris korpusları, yataqxanalar tikilib istifadəyə verildi, ali təhsil ocaqlarında müasir təlabata cavab verən təhsil sistemi və ali məktəb sistemi yaradıldı.

2. 70-80-ci illərdə H.Əliyevin rəhbərliyi altında həyata keçirilən zəruri tədbirlər nəticəsində Azərbaycan keçmiş SSRİ-nin inkişaf etmiş respubliklarından birinə çevrildi. Onun rəhbərliyi ilə yeni ali təhsil müəssisələri yaradıldı, yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində böyük nailiyyətlər qazanıldı, xalq təsərrüfatına rəhbərlik ixtisaslaşdı. Bu tarixi reallıqlar dissertasiyada əksini tapmış göstəricilərlə təsdiq edilir.

3. Tədqiqatla müəyyənləşdirilmişdir ki, respublikada həyata keçirilən tədbirlər nəticəsində elmin inkişafının təmin olunması, elm müəssisələrin yaradılması və sayının artırılması, onların maddi-texniki təchizatının möhkəmləndirilməsi gələcəkdə milli müstəqilliyimiz üçün zəruri olan intellektual baza və ehtiyat kadr bankının yaradılması üçün zəmin yaratmışdır.

4. Dissertasiyanın ayrı-ayrı fəsillərində və yarımfəsillərində konkret faktlarla sübuta yetirilmişdir ki, Heydər Əliyevin uzaqgörən, məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın sənaye potensialının gücləndirilməsi, xüsusilə də elmtutumlu sahələrin genişləndirilməsi, rabitə, elektronika, informasiya texnologiyaları və s. sahələrinin formalaşdırılması yeni zavodların yaranmasına və milli kadrların yerləşdirilməsinə əlverişli şərait yaratdı.

5. Tədqiqat prosesində belə bir konkret nəticəyə gəlirik ki, 1969-cu ilin avqust plenumunda ölkənin ictimai-siyasi həyatında mühüm rol oynamış respublikanın sosial-iqtisadi inkişafına dair təsirli və əhəmiyyətli qərarlar qəbul edilmişdir. Bu plenumunda respublikada mövcud sosial-iqtisadi çətinliklərin aradan qaldırılması, elm və təhsil sahələrində qarşıya çıxmış problemlemlərin həll edilməsi üçün təcili tədbirlər görülmüşdü ki, bununla da Azərbaycanın hərtərəfli inkişafının başlanğıcı qoyulmuşdu.

6. Tədqiq olunan dövrdə gənc və milli kadrların hazırlanması daim diqqət mərkəzində olmuşdur. Həm respublikada, həm də respublikadan kənarda təhsil almağa göndərilən azərbaycanlı tələbələrin sayı ildən-ilə artırıldı. Bu kadrlar zamanla ölkəmizin bu sahədə ehtiyat fondunun yaradılmasına gətirib çıxardı.

7. XX əsrin 70-80-ci illərində həyata keçirilən islahatlar şəxsi heyətin peşəkarlığının yüksəldilməsi, hərbi təhsil müəssisələrində kadrların hazırlanmasının müasir standartlara uyğunlaşdırılmasını təmin etdi. Bununla yanaşı peşəkar hərbi qulluqçularının sayının tədricən artırılması hesabına komplektləşdirmə sistemi təkmilləşdirildi, hərbi səviyyəsi yüksəldildi və müasir Azərbaycan Ordusunun formalaşması məqsədinə xidmət edərək etibarlı bazanın əsasları qoyuldu.

8. Tədqiqat prosesində əldə edilən mühüm nəticələrdən bir də ondan ibarətdir ki, Heydər Əliyevin böyük zəhmət və əziyyətləri bahasına, rəsmi Moskvanın maneələrinə baxmayaraq C.Naxçıvanski adına hərbi məktəbin yaradılması uzaqgörən siyasətin parlaq nəticəsi idi. Bu hər dəfə adi bir məktəbin yaradılması demək deyildi, dərindən düşünəndə bir daha aydın olur ki, Heydər Əliyevin uzaqgörən dövlətçilik siyasəti baxımından böyük əhəmiyyətə malik olan tarixi hadisədir. Bununla da, ordu quruculuğu və milli hərbi kadrların hazırlanması istiqamətində mövcud problemlərin aradan qaldırılması üçün ciddi addımlar atıldı, respublikada və respublikadan kənarda olan ali hərbi məktəblərə azərbaycanlı gənclərin daxil olması prosesi gücləndi. Bu hərbi liseyin əsasının qoyulması milli ordunun yaradılması istiqamətində böyük əhəmiyyətə malik hadisə idi.

9. Heydər Əliyev irsinin öyrənilməsi göstərir ki, Ulu Öndər milli ideologiyanın banisi olmaqla azərbaycançılıq ideyasını dövlətin strateji xətti kimi irəli sürmüşdü. Müstəqil Azərbaycan dövlətinin baş memarı Heydər Əliyev azərbaycançılığı ictimai həyatın bütün sahələrində istiqamətverici məfkurəyə çevirə bildi. Deməli, azərbaycançılığın Azərbaycan dövləti və xalqımızın milli-siyasi məfkurəsinə çevrilməsi də H.Əliyevin adı ilə bağlıdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı dərc edilmiş elmi əsərlərində öz əksini tapmışdır:**


1. Həmidov, A.B. Azərbaycan SSR-də təhsil (1970-1980-ci illər) // - Bakı: Tarix və onun problemləri nəzəri, elmi, metodik jurnal, - 2016. №4, - s.243-248.
2. Həmidov, A.B. 1969-cu il avqust plenumunda təhsil və milli kadr məsələsi // Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin anadan olmasının 94 və hakimiyyətə qayıdışının 24-cü ildönümünə həsr olunmuş V Beynəlxalq Elmi Konfransın materialları, - Şamaxı: - 23 may, - 2017, - s.80-85.
3. Həmidov, A.B. XX əsrin 70-80-illərin əvvəllərində Azərbaycan SSR-də yüksək ixtisaslı milli hərbi kadrların hazırlanmasında Heydər Əliyevin rolu // Doktorantların və gənc tədqiqatçıların XXI Respublika Elmi Konfransının materialları, - Bakı: - 24-25 oktyabr, - 2017, - s.13-14.
4. Hamidov, A.B. In the 70th of the 20th century the role of Haydar Aliyevs general leader in the preparation and placement of highly qualified national staff // - Kiev: Гілея: науковий вісник. Украина, Київ, - 2018. №7, - p.184-188.
5. Həmidov, A.B. XX əsrin 70-ci illərinin sonu Azərbaycan SSR-də milli kadr hazırlığında vəziyyət // - Bakı: - Tarix və onun problemləri nəzəri, elmi, metodik jurnal, - 2018. №3, - s.200-204.
6. Həmidov, A.B. XX əsrin 70-ci illərində yüksəkixtisaslı milli kadrların hazırlanmasında və yerləşdirilməsində ulu öndər

Heydər Əliyevin rolu // - Bakı: Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, - 2018. №3, - s.156-163.
7. Həmidov, A.B. О некоторых аспектах развития Азербайджанской ССР в 70–80-е годы // Большая Евразия: развитие, безопасность, сотрудничество Ежегодник Выпуск 2,Часть 2, - Москва: - 11 декабря, - 2019, - с.299.
8. Həmidov, A.B. XX əsrin 70-80-ci illərin əvvəllərində Respublika üçün yüksək ixtisaslı mütəxəssis hazırlığı bazasının genişləndirilməsində dövlət tədbirləri // Doktorantların və gənc tədqiqatçıların XXIII Respublika Elmi Konfransının materialları, - Bakı: - 3-4 dekabr, - 2019, -s.24-25.
9. Həmidov, A.B II Dünya müharibəsindən sonrakı dövrdə Azərbaycan SSR-də ordu quruculuğu // Azərbaycan II Dünya müharibəsi illərində mövzusunda onlayn beynəlxalq elmi konfransın materialları, - Bakı: - 22 iyun, - 2020, - s.17-19.
10. Həmidov, A.B. Yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında Bakı Dövlət Universitetinin rolu // Azərbaycanın ictimai-siyasi həyatında Bakı Dövlət Universitetinin Tarix fakültəsinin yeri və rolu mövzusunda Respublika Elmi Konfransının materialları, - Bakı: - 8-9 oktyabr, - 2020, - s.148-149.
11. Hamidov, A.B National cadres policy in the develompment of scientific and technical progress in the Azerbaijani SSR (1969-1982) // Проблемы современных интеграционных процессов и пути их решения. Стерлитамак, Российская Федерáция, - 4 декабря, - 2020, с.115-120.
12. Həmidov, A.B. Azərbaycan SSR-də yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması işi (XX əsrin 70-80-ci illərinin əvvəlləri) // - Bakı: Tarix və onun problemləri nəzəri, elmi, metodik jurnal, - 2021. №4, - s.146-148.
13. Həmidov, A.B. Azərbaycan SSR-də milli hərbi kadrların hazırlanmasında C.Naxçıvanski adına hərbi liseyin rolu (XX əsrin 70-80-ci illərinin əvvəlləri) // - Bakı: Tarix, insan və cəmiyyət elmi-nəzəri və elmi-metodik jurnal, - 2021. № 3(33), - s.32-37.

14. Hamidov, A.B. Heydar Aliyev’s interest in the strengthening and development of our statehood // - Odessa: Humanities Science Current Issues: Interuniversity collection of Drohobych Ivan Franko State Pedagogical University Young Scientists Research Papers, - 2024. Issue 72, Volume 1, - s.61-67.

Dissertasiyanın müdafiəsi 12 iyun 2024-cü il tarixində saat 12⁰⁰ Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən ED 2.20 saylı Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1148, Bakı şəhəri, Yasamal r/nu, Zahid Xəlilov küç., 33

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 10 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.04.2024
Kağız formatı: A5
Həcm: 43347
Tiraj: 100